## Elektrik enerji təhçizatı sahəsində yaranan suallar

**1. Enerji haqqının məbləği nəqədərdir?**
Tariflər 1 kVt/saat üçün (ƏDV ilə) - 6,0 qəpik

**2. Fərdi istifadəçilər və hüquqi şəxslər arasında enerji haqqının ödənilməsində fərq varmı?**
Xeyr, enerji haqqının ödənilməsində bütün istehlakçılar qrupları üçün eyni tarifdir.

**3.Enerji haqqı hara və hansı formada ödənilməlidir?**
Elektrik enerjisinə görə hesablaşmalar enerjitəchizatı müəssisəsinin abonentə təqdim etdiyi ödəniş sənədlərinə əsasən aparılır. Enerji haqqı üzrə ödəmələr vətəndaş tərəfindən şəxsən olaraq aidiyyatı üzrə poçt bölmələrinə və ya müvafiq banklara ödənilməlidir. İstehlakçı hesablaşma dövründə işlətdiyi elektrik enerjisinin haqqını enerjitəchizatı müəssisəsi tərəfindən ödəmə sənədi təqdim edildikdən sonra bir ay müddətində ödəməlidir.

**4.Sayğac nasaz olduğu halda hesablama necə aparılır?**
İstehlakçının, o cümlədən məişət abonentinin təqsiri olmadan uçot müvəqqəti pozulduqda, elektrik enerjisi sərfinin hesabatı enerjitəchizatı müəssisəsinin və istehlakçının razılığına əsasən uçot pozulana qədər və ya ucot bərpa edildikdən sonrakı dövrün orta gündəlik sərfinə uyğun aparılır. Elektrik enerjisinin orta gündəlik sərfinə görə hesablaşma dövrü bir aydan artıq olmamalıdır, bu müddət ərzində hesablaşma elektrik sayğaclarının normal işi enerjitəchizatı müəssisəsi tərəfindən bərpa olunmalıdır.

**5.Ödəniş gecikdirilməsinə görə sanksiyalar?**
Hər hansı bir səbəbdən, enerjitəchizatı müəssisəsi təqdim edilmiş elektrik enerjisinə görə ödəniş sənədi üzrə ödənişi elektrik enerjisinin alqı-satqı müqaviləsində müəyyən edilmiş müddət ərzində dövlət elektroenergetika müəssisəsinin hesabına köçürmədikdə, hər bir gün üçün ödəniş aparılan günədək ödəmə sənədindəki məbləğin 0,01 faizi miqdarında dəbbə (penya) verilməlidir. Elektrik enerjisinə görə enerjitəchizatı müəssisəsinin abonentə təqdim etdiyi ödəniş sənədlərinə əsasən ödəmə bir ay müddətını aparılmalıdır.

**6.Enerji təhcizatı hansı hallarda dayandırıla bilər?**
Enerji təchizatı müəssisəsi istehlakçıya elektrik enerjisinin verilməsini aşağıdakı hallarda dayandıra bilər: istehlakçının müvafiq yazılı müraciəti (elektrik enerjisinin verilməsinin dayandırılmasının səbəbi və müddəti göstərilməklə) olduqda; sayğacla müəyyənləşən hesab təqdim edildikdən sonra bir ay müddətində ödənilmədikdə; təmir-profilaktika və qəza işləri görüldükdə, o cümlədən baş verən yanğının və ya qaz sızmasının qarşısı alındıqda; enerji təchizatı müəssisəsi ilə müvafiq müqavilə bağlanmadıqda;. məhkəmənin qərarı ilə. İstehlakçıya elektrik enerjisinin verilməsinin dayandırılması yalnız fərdi qaydada həyata keçirilir.

**7.Yaşayış evinin sayğaclaşdırılması üçün nə etməli və proseduru?**
Sayğaclaşdırılma "Bir pəncərə" prinsipi əsasında həyata keçirilir. Vətəndaş yerli enerji təhcizat müəssəsinə standart formada tərtib olunmuş ərizə təqdim edir. Ərizə ilə birlikdə həmçinin şəxsiyyət vəsiqəsinin surəti, mülkiyyət hüququn təsdiq edən sənədin (çıxarış, şəhadətnamə(kupça)), torpaq sahəsinin ayrılması barədə sərəncamın (qərarın) və ya torpaq sahəsində evin tikilməsinə icazə verilməsi barədə sərəncamın(qərarın) surəti təqdim edilir. Daxil olan sənədlər əsasında texniki şöbə tərəfindən hazırlanan texniki şərt

əsasında müvafiq bölmə tərəfindən sayğac quraşdırılır və abunə kodu tərtib edilərək məlumat bazasına daxil edilir. Fiziki şəxslər üçün sayğaclaşdırma enerji təhcizat müəssəsinin hesabına aparılır.

**8.Nöqsan aşkar edildikdə və ya sayğac xarab olduqda vətəndaş nə etməli?**
Hesablaşma uçot cihazında nöqsan əşkar edildikdə vətəndaş nöqsanun aradan qaldırılması üçün enerji təhcizatı müəssəsinə ərizə ilə müraciət etməlidir. İstehlakçı, o cümlədən məişət abonenti yazılı məlumat verdikdən sonra enerjitəchizatı müəssisəsi on gündən gec olmayaraq hesablaşmanı, lazım gələrsə, sayğacı yoxlamalı və bu yoxlamanın nəticələri haqqında ona məlumat verməlidir.

**9.Sayğac yaşayış binasının girişində quraşdırıldığı halda onun korlanmasına görə vətəndaş məsiliyyət daşıyırmı?**
Xeyr, yaşayış binasının girişində, yaxud pilləkən meydançasında quraşdırılmış sayğacların baxış şüşəsinin sındırılması və ya diqər mexaniki zədələr görə abonent cavabdehlik daşımır.

**10.Sayğaca müdaxilə aşkar edildiyi halda aktlaşdırma proseduru necə həyata keçirilir?**
Məişət abonenti tərəfindən elektrik enerjisindən istifadədə pozuntuya yol verildiyi aşkar edildikdə, enerjitəchizatı müəssisəsinin nümayəndəsi onun və iki nəfər hal şahidinin iştirakı ilə akt tərtib edir və aktın bir nüsxəsini məişət abonentinə verir. Akt enerjitəchizatı müəssisəsinin nümayəndəsi, məişət abonenti və iki nəfər hal şahidi tərəfindən imzalanmalıdır. Məişət abonenti aktı imzalamaqdan imtina etdikdə bu barədə aktda müvafiq qeyd aparılır. Məişət abonenti izahatlar və aktın məzmunu barəsində öz mülahizələrini təqdim etmək, habelə aktı imzalamaqdan imtina etməsinin səbəblərini göstərmək hüququna malikdir, bu izahatlar və mülahizələr akta əlavə olunur.

**11.Abunəçi kodunun digər şəxsin adına keçirilməsi proseduru və müddəti?**
Elektrik enerjisinin alqı-satqı müqaviləsini, şəxsi hesabın digər məişət abonentinin adına keçirilməsi onların müraciətlərinə əsasən enerjitəchizatı müəssisəsi tərəfindən beş gün ərzində baxılır və həll edilir. Elektrik şəbəkəsinə əvvəllər qoşulmuş yaşayış binasındakı mənzilə yeni kirayəçi, yaxud mülkiyyətçi və ya xüsusi yaşayış evinə yeni mülkiyyətçi köçdükdə, həmin məişət abonenti ilə enerjitəchizatı müəssisəsi arasında beş gün müddətində elektrik enerjisinin alqı-satqı müqaviləsi bağlanılmalıdır və enerjitəchizatı müəssisəsi onun adına şəxsi hesab açır və istifadə edilən elektrik enerjisinə görə ödəniş sənədini müstəqil halda yazmaq üçün qəbzlər və bildiriş blankları olan hesablaşma kitabçasını verir (özünəxidmət üsulu).